# AĞDAM RAYONU (QUZANLI) ƏRAZİSİNDƏN GÖTÜRÜLƏN TƏBİİ SU NÜMUNƏLƏRİNDƏ RADİONUKLİDLƏRİN TƏYİNİ

**Sevinc Hacıyeva, Təranə Əliyeva, Bəsti Quliyeva, Aytən Səmədova**

*Bakı Dövlət Universiteti, n, aytan.samad@gmail.com*

Ağdam rayonun ərazisi Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında yerləşir. Quzanlı – Azərbaycan Respublikasının Ağdam rayonunun Quzanlı qəsəbə inzibati ərazi dairəsində qəsəbədir. Quzanlı qəsəbəsində çoxlu artezian quyuları, yeraltı su mənbələri (kəhrizlər) və bulaqlar vardır. Rayon ərazisində çaylar tranzit xarakter daşıyır. Öz axımlarını bütünlüklə Qarabağ silsiləsində və onun yamaclarında toplayır, Ağdam rayon ərazisində isə suvarmaya, filtirasiyaya və buxarlanmaya sərf olunur, heç bir qol qəbul etmir. İşğal dövründə digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da hər şey, o cümlədən su təsərrüfatı infrastrukturu tam dağıdılıb və bunlar müasir tələblərə uyğun yenidən qurulmalıdır.

Ağdamın (Quzanlı) ərazisindən təbii su nümunələri götürülmüşdür və onlarda radionuklidlər rentgen-flüoressent metodu ilə analiz olunmuşdur. Bunun üçün Rentgen-fluoressent analizatoru – Frontier MIR / FIR Spectrometer - Rigaku cihazından istifadə edilmişdir. Su nümunələrində radionuklidlərin həcmi aktivlikləri Canberra (ABŞ) firmasının istehsalı olan yüksək təmizlikli germanium detektorlu (HP Ge) qamma-spektrometrdə təyin edilmişdir. Analizin nəticələri cədvəl 1-də verilmişdir.

**Cədvəl.** Ağdam ərazisindən götürülən təbii su nümunələrinin analizlərinin nəticələri

| **Nümunə** Bq/kq | $^{210}$Pb | $^{226}$Ra | $^{234}$Th | $^{40}$K | $^{235}$U | $^{228}$Ra | $^{234}$Pa |
|---|---|---|---|---|---|---|---|
| Bulaq suyu | 3,9 | 1,2 | 3,8 | 1,1 | 1,9 | 2,3 | 70,6 |
| Artezian suyu | 5,8 | 1,6 | 5,6 | 5,8 | 2,7 | 3,4 | 98,6 |
| Duzlu fontan | 5,3 | 1,6 | 5,0 | 13,3 | 2,5 | 3,1 | 96,7 |

Nəticələrdən göründüyü kimi, bulaq, mineral termal su və artezian suyu nümunələrində radioaktiv elementlərin miqdarı yol verilən qatılıq həddini dəfələrlə keçir.